# Məhəmməd Füzulinin 530 illiyi münasibətilə elektron məlumat bazası hazırlanıb

Prezident İlham Əliyevin dahi şair Məhəmməd Füzulinin 530 illik yubileyi ilə əlaqədar imzaladığı sərəncamdan irəli gələn tədbirləri həyata keçirmək məqsədilə Cəfər Cabbarlı adına Respublika Gənclər Kitabxanasında şairin həyat və yaradıcılığı, zəngin bədii irsi haqqında elektron məlumat bazası hazırlanıb.




Kitabxananın rəsmi saytında yerləşdirilən bazada Ümummilli Liderin Məhəmməd Füzulinin anadan olmasının 500 illik yubileyinə həsr edilmiş təntənəli gecədə nitqinin, pedaqogika elmləri doktoru, professor Kamal Camalovun "Məhəmməd Füzuli humanizmi və ideya saflığı" məqaləsinin tam mətni ilə yanaşı, "Ulu Öndər Heydər Əliyev və Məhəmməd Füzuli", "Görkəmli şəxslər Məhəmməd Füzuli haqqında", "Məhəmməd Füzuli bədii ədəbiyyatda" kimi bölmələr də mövcuddur.

Elektron bazada dahi şairin Azərbaycan, türk, ingilis və rus dillərində nəşr edilən, dövri mətbuatda çıxan əsərləri, haqqında yazılan, məcmuələrdə və ayrı-ayrı kitablarda çap edilən məqalələri, sözlərinə yazılan musiqi əsərləri, görkəmli mütəfəkkirə həsr edilən dissertasiya və avtoreferatlar, elektron resurslar təqdim edilir. Kitabxana əməkdaşları tərəfindən hazırlanan bazada Məhəmməd Füzulinin xatirəsinin əbədiləşdirilməsi haqda məlumatlar, kitablarının virtual sərgisi, filmoqrafiyası, foto, videoqalereyası da sərgilənir.

Azərbaycan.- 2024.- 28 dekabr (№288).- S.19.